“Unibank Kommersiya Bankı” Açıq Səhmdar Cəmiyyətinin “Mükafatlandırma” Siyasəti aşağıdakı əsas prinsiplər əsasında formalaşdırılmışdır:

- Qanunvericilik və Bankın strategiyası ilə ziddiyyət təşkil etməməsi;
- Dəqiq ölçülmüş meyarlar əsasında obyektiv qiymətləndirmə ilə əməkdaşın əməyinin ədalətli ödənişinin həyata keçirilməsi, ödənişlərin müəyyən edilməsində hər hansı bir ayrıseçkiliyə yol verilməməsi, mükafatlandırma sisteminin əmək bazarı səviyyəsinə uyğunluğunun təmin edilməsi;
- Həm fərdi, həm də kollektiv əməyin stimullaşdırılmasına yönəlməsi;
- Mükafatlandırmadan alınan səmərənin Bank üçün stimullaşdırmaya yönəldilən xərclərdən çox olmasının təmin olunması;
- Mükafatlandırma siyasəti ilə bağlı məlumatların qanunvericiliyin tələblərinə uyğun olaraq açıqlanmasının təmin olunması;
- Bankın strateji hədəflərə nail olmasına yönəldilməsi;
- Bankın uzunmüddətli fəaliyyət nəticələrinə və mənfəətliliyinə əsaslanması;
- Bankın risk iştahasına adekvat olması və izafi risk qəbulunu məhdudlaşdırması;
- Bank tərəfindən üzərinə uzunmüddətli risklərin götürülməsi hesabına qısamüddətli dövrdə gəlir əldə etməsinə təşviq etməməsi;
- Maraqlar münaqişəsinə yol verməməsi;
- Banka uyğun bilik, bacarıq və təcrübəyə malik əməkdaşların işə cəlb edilməsi və işə cəlb olunmuş şəxslərin loyallığının təmin edilməsinə şərait yaradılması.